# Ankara Universitetində 2026 Yaz Semestri üçün Tələbə Mübadilə İmkanı




## Əziz tələbələr!

Türkiyənin ən qədim və nüfuzlu ali təhsil ocaqlarından biri olan **Ankara Universiteti** 2026-cı ilin **yaz semestri** üçün beynəlxalq tələbə mübadilə proqramı elan edib. Bu proqram çərçivəsində siz bir və ya iki semestr ərzində Ankara Universitetində təhsil alaraq həm akademik, həm də mədəni təcrübə qazana bilərsiniz.

Müraciət üçün son tarix 15 noyabr 2025-dir. Qeyd edək ki, müraciətlər yalnız tərəfdaş universitetlərin Beynəlxalq Əməkdaşlıq şöbəsi vasitəsilə qəbul olunur, fərdi müraciətlər isə qəbul edilmir. Namizədliyi təsdiqlənən tələbələrdən tələb olunan sənədlər universitet tərəfindən e-mail vasitəsilə toplanacaq. Hər bir tərəfdaş universitet üçün maksimum beş tələbə qəbul olunur.

Proqrama müraciət etmək istəyənlərdən rəsmi nominasya məktubu, dil biliklərini təsdiqləyən sənəd (Türkcə və ya İngiliscə, minimum B2 səviyyə), akademik transkript, pasportun və rəngli fotoşəklin surəti tələb olunur.

Yaz semestri üzrə akademik təqvimə əsasən dərs qeydiyyatı fevralın 9-dan 15-nə qədər davam edir, dərslər fevralın 16-da başlayır və iyunun 5-də yekunlaşır. İmtahan dövrü 6–28 iyun tarixlərini, telafi imtahanları isə 4–14 iyul tarixlərini əhatə edir. Fakültələr üzrə dəqiq tarixlər fərqli ola bilər, buna görə də fakültələrin rəsmi saytlarını yoxlamaq məsləhətdir: https://www.ankara.edu.tr/en/dizin/Fakulteler.

Tədris planları və kurs məzmunu haqqında məlumatı Ankara Universitetinin Bologna Məlumat Sistemindən əldə edə bilərsiniz: https://bbs.ankara.edu.tr/default.aspx.

Yaşayış imkanları yalnız tərəfdaşlıq müqaviləsində nəzərdə tutulubsa təmin olunur. Əgər bu maddə mövcud deyilsə, tələbələr öz yaşayış yerlərini müstəqil şəkildə tapmalıdırlar. Türkiyədə qalma müddətiniz boyunca etibarlı **səhiyyə sığortası**na sahib olmanız vacibdir. Ölkəyə gəlməzdən öncə https://e-ikamet.goc.gov.tr səhifəsindən oturum icazəsi proseduru ilə tanış olmaq tövsiyə olunur.

Yaşayış xərcləri Ankara şəhərində nisbətən münasibdir: təxminən aylıq 300 ABŞ dolları ilə rahat yaşamaq mümkündür. Türk dili kurslarının (TÖMER) qiymətləri 140–200 ABŞ dolları arasında dəyişir. Şəhərdaxili nəqliyyatda metro biletinin bir gedişi isə təxminən 0.43 dollardır.

Ətraflı məlumat və suallar üçün Lənkəran Dövlət Universitetinin Beynəlxalq Əməkdaşlıq şöbəsi ilə əlaqə saxlaya bilərsiniz:


int-rel@lsu.edu.az

(+994)025-255-25-59.

Azərbaycan Respublikası, AZ4200, Lənkəran şəhər, Həzi Aslanov - 50


Ankara Universiteti sizi elm, mədəniyyət və dostluğun qovuşduğu bir təcrübəyə dəvət edir. Bu fürsəti qaçırmayın – beynəlxalq təhsil macəranızı elə indi başlayın!

